

# Azərbaycan zirvəsi

Azərbaycan tarixən milli-mənəvi cəhətdən zəngin, müxtəlif dil, din və mədəniyyətlərin sərbəst şəkildə inkişaf etdiyi məkanlardan biridir. Ölkəmizdə multikulturalizm və tolerantlıq dəyərlərinin tarixi kökü çox qədim dövrlərə qədər uzanır, çünki ta qədimdən bu torpaqlarda təşəkkül tapmış xalqlar dil, din, mədəniyyət fərqlərinə baxmadan birgə, dostluq və qardaşlıq şəraitində yaşamışlar. Qədim və müasir tariximizin bütün dövrlərində əsrlərdən bəri formalaşan multikulturalizm və birgəyaşayış ənənələri mövcud olmuşdur. Bu bir gerçəklikdir ki, bu gün ölkəmizin bütün regionlarında mədəni müxtəliflik həyat tərzinə çevrilmişdir. Azərbaycanda dövlət-din münasibətlərinin tənzimlənməsi, milli-dini sabitlik, etnik və dini dözümlülüyün, tolerantlığın və multikulturalizmin dövlət səviyyəsində qorunub saxlanılması ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra daha da möhkəmlənmiş, tolerantlıq və multikulturalizm dövlət siyasətinin əsas istiqamətlərindən və hədəflərindən birinə çevrilmişdir. Heydər Əliyev ilk dəfə olaraq multikulturalizmi azərbaycançılıq ideyasının tərkib hissəsi kimi təqdim etdi və Azərbaycanın çoxmədəniyyətlilik ənənəsini inkişaf etdirib onu keyfiyyətcə yeni müstəviyə keçirdi.

Ulu öndər respublikada yaşayan bütün xalqlara, millətlərə, habelə dilindən, dinindən, irqindən, siyasi mənsubiyyətindən asılı olmayaraq başqa konfessiyaların nümayəndələrinə olan münasibəti bu cür bəyan etmişdir: “Azərbaycan Respublikası çoxmillətli bir dövlətdir. Azərbaycanda müsəlmanlarla yanaşı, başqa dinlərə mənsub olan vətəndaşlar da yaşayır. Azərbaycan müstəqil, demokratiya prinsiplərinə mənsub olan bir dövlət kimi öz ərazisində yaşayan bütün xalqlara, bütün millətlərə dinindən, dilindən, irqindən, siyasi mənsubiyyətindən asılı olmayaraq azadlıq, hürriyyət imkanları verir”.

Ümummilli liderin “Dövlət, ölkə nə qədər çox xalqı birləşdirsə, bir o qədər zəngin olur, çünki onların hər biri ümumdünya mədəniyyətinə və sivilizasiyasına öz töhfəsini verir” fikirləri Böyük İpək yolu üzərində, mədəniyyətlərin qovuşduğu yerdə təşəkkül tapmış Azərbaycanın tolerantlıq və multikulturalizm ənənələrinə sadiqliyini bildirməklə ölkəmizdə bütün xalqların bərabər hüquqlara malik olduğunun təsdiqidir. Bütün bu hüquqlar 1995-ci ildə ulu öndər Heydər Əliyevin bilavasitə təşəbbüsü və rəhbərliyi altında arayaərsəyə gəlmiş Ali Qanunumuzda - müstəqil Azərbaycan Respublikasının Konstitusiyasında da öz əksini tapmış və beləliklə, ölkəmizdə dövlət-din münasibətlərinin yeni istiqaməti formalaşmış, respublikamızda milli-mənəvi tolerantlığın, multikulturalizmin daha da inkişaf etdirilməsi üçün hüquqi baza yaradılmışdır. Konstitusiyamızın “Azərbaycan dövləti” adlı 7-ci maddəsində dövlətimizin demokratik, hüquqi, dünyəvi, unitar respublika olması, “Din və dövlət” adlı 18-ci maddəsində respublikada dinin dövlətdən ayrı olması və bütün dini etiqadların qanun qarşısında bərabərliyi, “Bərabərlik hüququ” adlı 25-ci maddəsində isə irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq, hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verilməsi öz əksini tapmışdır. Konstitusiyanın 44-cü maddəsinə əsasən, hər kəsin milli mənsubiyyətini qoruyub saxlamaq hüququ var və heç kəs milli mənsubiyyətini dəyişdirməyə məcbur edilə bilməz.

“Mədəniyyət haqqında” qanunun 11-ci maddəsi dövlətin Azərbaycan ərazisində yaşayan bütün milli azlıqların mədəni kimliyinə önəm verdiyinə hüquqi əsas yaratdığını təsdiqləyir. Azərbaycan Respublikası Konstitusiyasının “Vicdan azadlığı” adlı maddəsində hər kəsin dinə münasibətini müstəqil müəyyənləşdirmək, hər hansı dinə təkbaşına və ya başqaları ilə birlikdə etiqad etmək, yaxud heç bir dinə etiqad etməmək, dinə münasibətilə bağlı əqidəsini ifadə etmək və yaymaq hüquqları təsbit edilmişdir.

Bu müddəaların həyata keçirilməsi, dini etiqad azadlığı ilə bağlı qanunvericilik aktlarına riayət olunmasına nəzarətin təmin edilməsi və dini qurumların qeydiyyata alınması 2001-ci ildə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin yaradılmasını labüd etdi və beləliklə də ölkədə dövlət-din münasibətlərinin yeni, daha yüksək səviyyədə tənzimlənməsini, müsbət keyfiyyət dəyişikliklərini və islahatların sürətlənməsini təmin etmiş oldu.

Milli qanunvericiliyin müddəaları ilə yanaşı ölkəmiz bu məsələlərə dair beynəlxalq çağırışlara da həvəslə cavab verir. Azərbaycan Respublikası ərazisində onun 1996-cı ildə qoşulduğu “İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında”, “Aparteid cinayətinin qarşısının alınması və onun cəzalandırılması haqqında” və “Genosid cinayətinin qarşısının alınması və onun cəzalandırılması haqqında” BMT konvensiyaları kimi beynəlxalq sənədlərin müddəaları da tətbiq olunur. Bundan əlavə, 2001-ci ildə Azərbaycan Respublikası Avropa Şurasının “Regional və ya azlıq dilləri haqqında Avropa Xartiyası”nı imzalamışdır.

Ümummilli lider dövlət-din münasibətlərinə dair mövqeyini açıqlayarkən dini ilk növbədə mədəniyyətin, tarixi irsin, milli mentalitetimizin bir fenomeni və ayrılmaz bir hissəsi kimi təqdim etmişdir. Bu mənada “Dini etiqad azadlığı haqqında” qanuna zamanın tələbi olaraq bir sıra əlavə və dəyişikliklər edilməsi, tolerantlıq və dini dözümlülüyün möhkəmlənməsinə yönələn qanunvericiliyin beynəlxalq hüquq normalarına uyğunlaşdırılması, Azərbaycanda və ümumilikdə regionda ilk dəfə 1999-cu ildən etibarən 16 noyabrın Beynəlxalq Tolerantlıq Günü kimi qeyd edilməsi məhz ümummilli liderin təşəbbüsü ilə olmuşdur.

Son illər bu siyasət daha təkmil formada inkişaf etmiş və bu sahədə bir sıra yeni genişmiqyaslı tədbirlər həyata keçirilmişdir. Önəmlidir ki, mütəmadi olaraq Azərbaycanda fəaliyyət göstərən bütün dini icmalara daha səmərəli nəticələr əldə etmək məqsədilə maliyyə vəsaitləri ayrılır, bu vəsaitdən dini qurumların müxtəlif problemlərinin həll olunmasında istifadə olunur. Ümumilikdə Azərbaycanda qeydiyyata alınmış 644 dini qurumun tərkibinə İslamdan başqa həm də xristian, yəhudi, bəhai və krişna şüuru təmayüllü dini konfessiyalar da daxildir. Ölkə ərazisində 2000-dən çox məscidlə yanaşı 13 kilsə və 7 sinaqoq da fəaliyyət göstərir.

Ölkə başçısı İlham Əliyev tolerantlığın və multikulturalizmin artıq dövlət siyasətinə və cəmiyyətin həyat tərzinə çevrildiyinə xüsusi önəm verir: “Tolerantlıq artıq ölkəmizin vizit kartına çevrilib. Azərbaycanda milli və dini dözümlülüyün, tolerantlığın yüksək səviyyədə olması faktdır və bu, bizim güc mənbəyimizdir”. 2016-cı ili “Multikulturalizm ili” elan etməklə Prezident İlham Əliyev yerli və beynəlxalq ictimaiyyətə bununla bağlı mühüm mesajlar çatdırmışdır.

Azərbaycan Prezidentinin müvafiq fərmanları əsasında ölkəmizdə məhz dini, milli və multikultural məsələlərə daha diqqətlə yanaşmaq və bu istiqamətdə sistemli siyasət həyata keçirmək məqsədilə Azərbaycan Respublikasının Millətlərarası, Multikulturalizm və Dini Məsələlər üzrə Dövlət Müşavirliyi Xidməti, 2014-cü ildə isə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi yaradılmışdır. Mərkəzin fəaliyyəti məhz Azərbaycanda tolerantlığın, mədəni, dil və din müxtəlifliyinin qorunmasını təmin etmək, habelə ölkəni dünyada multikulturalizm mərkəzi kimi tanıtmaq və mövcud multikultural modelləri araşdırmaq və təşviq etməyə yönəlmişdir.

Azərbaycanın multikulturalizm, tolerantlıq təcrübəsi, dil-din, mədəniyyətlər rəngarəngliyi tək ölkə daxilində deyil, beynəlxalq miqyasda da diqqət mərkəzində olmuşdur. 2002-ci ilin mayında Bakıda səfərdə olan Roma Katolik Kilsəsinin sabiq başçısı II İoann Pavel Azərbaycanı tolerantlığın mövcud olduğu nadir ölkələrdən hesab etmiş və demişdir: “Azərbaycan üç müxtəlif dinin dinc yanaşı yaşadığı nadir bir ölkə və dini dözümlülük baxımından sabit cəmiyyətdir. Bu sabitlik gərgin əməyin, ölçülüb-biçilmiş çox incə bir siyasətin və möhkəm iradənin nəticəsidir. Bu, milli adət-ənənələrə, mənəvi-dini dəyərlərə ölkə rəhbərliyinin münasibəti fonunda yaranmış əlverişli şəraitin təbii təzahürüdür”.

Unikal etnik zənginliyi ilə seçilən Azərbaycanda fərqli dinlərə, millətlərə, etnik azlıqlara məxsus xalqlar sülh və əmin-amanlıq şəraitində yaşayırlar. Dövlət Statistika Komitəsinin 2009-cu il respublika əhalisinin siyahıyaalınmasında azərbaycanlılarla yanaşı ölkə əhalisinin 10 faizədək hissəsinin milli azlıqlardan - yəhudilər, tatlar, talışlar, kürdlər, ingiloylar, saxurlar, avarlar, ləzgilər, xınalıqlılar, ermənilər, ruslar, ukraynalılar, udilər və digər etniklərdən ibarət olması öz əksini tapmışdır. Bu etnik qrupların nümayəndələrinin özünəməxsus fərqli mədəniyyətin elementləri məişətdə, incəsənətdə və digər müxtəlif sahələrdə təzahür etməkdədir. Dövlət tərəfindən onlara öz adət-ənənələrini, dillərini qoruyub saxlamaq üçün bütün imkanlar yaradılıb. Etnik azlıqlara da tam bərabər mədəni hüquqlar və ölkənin mədəni irsindən istifadə hüququ verilmişdir. Ölkəmizdə milli azlıqlar öz milli mədəni mərkəzlərini, assosiasiyalarını və digər qurumlarını yaratmaq hüquqlarından tam və rahat istifadə edirlər. Hal-hazırda Azərbaycanda rus, ukraynalı, kürd, ləzgi, tat, tatar, ingiloy, gürcü, çeçen, Axıska türkü, talış, avar, yəhudi, alman, udi, polyak, buduq, saxur və digər etniklərin onlarla milli mədəniyyət mərkəzi və cəmiyyətləri fəaliyyət göstərir.

Ona görə də Azərbaycan Respublikası nəinki Qafqazda, hətta bütün dünyada müasir xalqların, millətlərin birgəyaşayış nümunəsi kimi tanınır. Bütün digər millətlərin və milli azlıqların nümayəndələri hər yerdə, hər bir işdə azərbaycanlılarla çiyin-çiyinədir, həm sevinci, həm də ağrını-acını qardaşcasına bölüşürlər.

Təsadüfi deyil ki, Qarabağ müharibəsi dövründə onlar vətən uğrunda azərbaycanlılarla yanaşı erməni işğalçılarına qarşı qəhrəmanlıqla mübarizə aparmış, şəhidlik zirvəsinə yüksəlmiş və qazi olmuşlar. Ölkəmizdə olan multikulturalizm və tolerantlıq ənənələri onlara Azərbaycanı həqiqi vətən məhəbbəti ilə sevmək şansı vermişdir. Bu, hazırkı gərgin beynəlxalq şəraitdə bəşəriyyətə sivilizasiyalararası dialoq sahəsində münasibətlərə nümunə ola biləcək bir ismarıcdır. Lakin müqayisə üçün deyək ki, nankor qonşumuz olan Ermənistanda ksenofobiya, irqi, milli-dini ayrı-seçkilik mövcuddur. 1988-ci ildən başlayaraq Ermənistandan, Dağlıq Qarabağ və ətraf rayonlardan azərbaycanlıların və digər xalqların çıxarılması dövlət səviyyəsində etnik təmizləmə siyasətini çılpaqlığı ilə ortaya qoydu. Çox təəssüf ki, üçüncü onillikdir münaqişə davam edir və Ermənistan həm öz ərazisində, həm də Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ regionunda monoetnikliyi “qorumaqla” bu mənfi imicini yeni çalarlarla zənginləşdirməkdə davam edir. Bu, multikulturalizmin inkişafına və Qafqazda sülhə qarşı çox təhlükəli bir haldır. Azərbaycan dövləti isə dünyadakı mövcud ikili standartlara baxmayaraq, multikulturalizm və tolerantlıq ənənələrinə həmişə və hər bir halda sadiq olduğunu nümayiş etdirir. Prezident İlham Əliyev 2015-ci ildə Parisdə UNESCO Baş Konfransının 38-ci sessiyasının Liderlər Forumunun yüksək tribunasından Ermənistanın mədəni irsə qarşı vandalizm siyasətini ifşa etmiş və müqayisəli yanaşmasını açıqlamışdır. “İşğal nəticəsində ölkəmizin 600-dən çox tarixi və memarlıq abidəsi, 40 min eksponatı olan 22 muzey, 10 məscid məhv edilmişdir. Buna baxmayaraq, siz bu gün Bakının mərkəzində Azərbaycan hökuməti tərəfindən bərpa edilmiş erməni kilsəsini görə bilərsiniz”. Yeri gəlmişkən, ölkəmizdə Dağlıq Qarabağ və ətraf rayonlardan əlavə, Bakı şəhərində və digər rayonlarımızda 30 min nəfərə qədər etnik erməni sərbəst şəkildə yaşamaqdadır.

Ölkəmizdə mədəniyyətlərarası dialoqun formalaşmasını şərtləndirən əsas amillərdən biri də Azərbaycanın coğrafi baxımdan qərarlaşdığı məkanın Şərqlə Qərbin qovşağında yerləşməsidir. Ümummilli lider hər zaman Azərbaycanın istər Şərq, istərsə də Qərb mədəniyyətinə və dəyərlərinə inteqrasiyasının zəruriliyini gündəmə gətirmişdir. Bu proses isə birtərəfli deyil, qarşılıqlı yararlanma prinsipinə söykənir. Yəni Azərbaycan bu gün iki fərqli sivilizasiya arasında körpü rolunu oynamaqla Şərq və Qərb yarımkürələrində öz nüfuzunu gücləndirməkdədir. Bu ideya xarici siyasət kursumuzda da kifayət qədər özünü əks etdirir. Bu gün Azərbaycan BMT, ATƏT, Avropa Şurası, İslam Konfransı Təşkilatı, GUAM və bu kimi mötəbər təşkilatların tamhüquqlu üzvüdür. Ölkəmiz Avropa Birliyinin həyata keçirdiyi “Şərq tərəfdaşlığı” layihəsi çərçivəsində Avropaya inteqrasiya prosesinin önündə addımlayır. Sözsüz ki, bu uğurlar ilk növbədə Heydər Əliyevin xarici siyasət sahəsində apardığı islahatların və onun siyasi varisi olan ölkə Prezidenti cənab İlham Əliyevin bu istiqamətdə göstərdiyi yüksək fəaliyyətin nəticəsidir.

Respublikamızada dini dözümlülüyün, dini müxtəlifliyin, milli və dini tolerantlığın, multikulturalizmin, milli-mənəvi dəyərlərin inkişafında və təbliğ edilməsində Heydər Əliyev Fondunun, o cümlədən fondun prezidenti, UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın əvəzolunmaz xidmətləri var. Mehriban xanım Əliyeva Azərbaycan reallıqlarını, ənənələrini, multikulturalizmi, tolerantlıq mədəniyyətini hər zaman daxildə və ölkə xaricində beynəlxalq konfranslarda, tədbirlərdə dünya ictimaiyyətinin diqqətinə çatdırır, milli-mənəvi dəyərlərin qorunub saxlanılmasına dəstək verir və milli mədəniyyətimizin təbliğində böyük işlər görür. Mehriban xanım Əliyeva respublikamızın dünya ölkələri üçün tolerantlıq nümunəsi olduğunu belə ifadə etmişdir: “Xalqlar arasında ənənəvi dostluq və qardaşlıq münasibətlərinin, tolerantlığın hökm sürdüyü Azərbaycan cəmiyyəti bizim tarixi nailiyyətimizdir və bu amil ictimai-siyasi həyatımızın aparıcı normasına çevrilmişdir”.

2015-ci ildə Parisdə Heydər Əliyev Fondunun təşkilatçılığı ilə keçirilmiş dünya şöhrətli fotoqraf Reza Deqatinin əsrlər boyu Azərbaycan torpağında dinc yanaşı yaşamış müsəlman, xristian və yəhudi icmalarının həyatından bəhs edən “Azərbaycan - tolerantlıq ölkəsi” adlı fotosərgisi “Tolerantlığın ünvanı - Azərbaycan” layihəsi əsasında ölkəmizdəki məscidlərdə, kilsələrdə, sinaqoqlarda təmir-bərpa işlərinin aparılması, Bakıda yaşayan yəhudi uşaqları üçün “Xabad-Or-Avner” Təhsil Mərkəzinin istifadəyə verilməsi, Fransada X-XII əsrlərə aid 7 kilsənin bərpasına yardım, müqəddəs Roma katakombalarının bərpasında iştirak, Həştərxanda Müqəddəs Knyaz Vladimirə abidənin ucaldılması və digər layihələr buna bariz misaldır.

Ölkə başçısının müqəddəs dini sitayiş və inanc yerlərinin təmiri və bərpası ilə bağlı xüsusi sərəncamları, din xadimləri ilə mütəmadi olaraq görüşləri, müxtəlif dini bayram və mərasimlərdə şəxsən iştirak etməsi, onlara diqqət və qayğı ilə yanaşması, habelə dini icmaların fəaliyyəti üçün əlverişli şəraitin yaradılması respublikamızda multikulturalizm mühitinin yaranmasına təkan verən amillərdəndir. Bibiheybət, Təzəpir, Nardaran, Mir Möhsün ağa və digər məscid və ziyarətgahlar əsaslı təmir olunmuş, onların bütün problemləri öz həllini tapmışdır. Əjdərbəy məscidinin əsaslı təmiri, Şamaxı Cümə məscidində böyük təmir-tikinti işlərinin başa çatdırılması, Gəncə şəhərindəki İmamzadə ziyarətgahında genişmiqyaslı tikinti-təmir işlərinin görülməsi söylənilənlərin əyani sübutudur. Bibiheybət Ziyarətgah Kompleksinin yenidənqurma işlərindən sonra Prezident İlham Əliyev məscidin yenidən istifadəyə verilməsi ilə bağlı tədbirdə Azərbaycanda milli-mənəvi dəyərlərdən, tarixi köklərə bağlılıqdan danışmış, tolerantlıq ənənələrinin əhəmiyyətinə belə dəyər vermişdir: “Bu, bizim böyük üstünlüyümüzdür, böyük sərvətimizdir. Azərbaycan çoxmillətli ölkədir, çoxkonfessiyalı ölkədir. Bizim təcrübəmiz artıq başqa ölkələrdə öyrənilir, beynəlxalq təşkilatlarda diskussiyalar mövzusuna çevrilir və gələcəkdə, əlbəttə ki, Azərbaycanın tolerantlıq məkanı kimi rolu dünya işlərində, dünyada gedən proseslərdə artacaqdır”. Bütün bunlar onu göstərir ki, Prezident tariximizin, ənənələrimizin, adətlərimizin, inanc yerlərimizin unudulmasına imkan vermir və hər zaman gələcək nəsillərin xalqımızın tarixinə bağlı olması, vətənini, xalqını sevməsi üçün milli-mənəvi bazanın formalaşmasına xüsusi diqqət yetirir. Bakı şəhərində 2014-cü ildə tikilib istifadəyə verilmiş “Heydər” məscidində isə unikal fəaliyyət nümunəsi və multikulturalizm baxımından dünyada bir ilkə imza atılmışdır. Belə ki, məsciddə dini ayin icra olunarkən sünni və şiə məzhəbindən olan dindarlar bir yerdə vahid şəkildə namaz qılırlar. Məscidin açılışında iştirak edən ölkə rəhbəri dinlərarası-mədəniyyətlərarası dialoq, multikulturalizm haqda da fikirlərini bölüşmüşdür: “Eyni zamanda, biz bu gün beynəlxalq aləmdə dinlərarası dialoqun möhkəmləndirilməsi üçün öz dəyərli töhfəmizi veririk. Təsadüfi deyil ki, məhz Azərbaycan dünyanın multikulturalizm mərkəzlərindən birinə çevrilmişdir. Ölkəmizdə keçirilən beynəlxalq tədbirlər, dialoqlar, mədəniyyətlərarası dialoq, humanitar forum, dünya dinlərinin liderlərinin zirvə görüşləri - bütün bunlar bu gün Azərbaycan reallıqlarıdır”.

Azərbaycanda tolerantlıq mühiti hər zaman ən üst səviyyədə olduğu üçün burada multikulturalizm, millətlər və dinlər arasında olan münasibətlərə, dialoqa həsr edilmiş beynəlxalq səviyyəli bir çox tədbirlər, elmi konfranslar keçirilir. Dünyanın müxtəlif ölkələrinin ənənəvi dünya dinlərini təmsil edən 200-dən çox nümayəndənin iştirak etdiyi “Qloballaşma, din, ənənəvi dəyərlər” mövzusunda tədbir 2010-cu ilin aprelində məhz Bakı şəhərində keçirilmişdir. Bunu Azərbaycanın beynəlxalq aləmdə tanınması, tolerantlıq mühitinin genişlənməsi və inkişafı ilə əlaqələndirmək olar. 2011-ci ildən başlayaraq Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şəxsi təşəbbüsü ilə hər iki ildən bir Bakıda Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu keçirilir. Bu forumlar UNESCO, BMT-nin Sivilizasiyalar Alyansı, Avropa Şurası, Avropa Şurasının Şimal-Cənub Mərkəzi, ISESCO, BMT-nin Dünya Turizm Təşkilatının tərəfdaşlığı ilə reallaşdırılır.

Azərbaycanın multikulturalizm və tolerantlıq ənənələri ulu öndər Heydər Əliyevin miras kimi qoyub getdiyi, ölkəmizin aparıcı partiyası olan Yeni Azərbaycan Partiyasının Nizamnaməsində də öz əksini tapmışdır. Belə ki, “Yeni Azərbaycan Partiyasının ali məqsədi irqindən, milliyyətindən, sosial mənşəyindən, dilindən və dinindən asılı olmayaraq şəxsiyyətin hüquq və azadlıqlarının hərtərəfli və etibarlı müdafiəsinin təmin edilməsi, qanunçuluq, möhkəm əmin-amanlıq, ictimai həmrəylik və firavan həyat üzərində qurulmuş vətəndaş cəmiyyətinin formalaşdırılmasından və insanların müstəqil dövlətçilik ətrafında birləşdirilməsindən ibarətdir”. Partiyanın vəzifələri sırasına daxil olan əsas məsələlərdən biri də məhz “millətlərin, etnik qrupların, mədəniyyətlərin və dinlərin azad inkişafına nail olmaqdır”. YAP özünün bütün fəaliyyəti boyu multikulturalizm ideyalarına sadiq qalmış, onun inkişafı üçün əlində olan bütün imkanları ortaya qoymuş və hər sahədə olduğu kimi, burada da böyük uğurlarına imza atmışdır. Təsadüfi deyil ki, ölkəmizin 650 mindən artıq siyasi orduya malik YAP üzvlərinin 20 minə qədəri digər millətlərin nümayəndələridir. Bu mənada YAP multikulturalizmin, tolerantlığın təcəssümüdür və burada Azərbaycanda yaşayan bütün xalqların nümayəndələri təmsil olunmuşlar. Partiya sıralarında azərbaycanlılarla yanaşı rus, ləzgi, yəhudi, tatar, udi, talış, tat, kürd, saxur, avar və digər etniklərin nümayəndələri var.

İzolyasionizm (təcridetmə), assimilyasiya və aparteiddən fərqli olaraq, multikulturalizm - cəmiyyətdə yalnız bir hakim etnik qrupun deyil, həmçinin digər milli azlıqların və immiqrantların mədəni müxtəlifliyinin və rəngarəngliyinin mövcudiyyətidir. Dünyada fərqli adlarla öz mədəniyyətlərinin üstünlüyünü təmin etməyi qarşılarına məqsəd qoyan, digər etniklərə, immiqrantlara assimilyasiya obyekti kimi baxan, cismən, yaxud mənəvi əritmək, yox etmək fəaliyyətlərini tarixdə və müasir dövrümüzdə dövlət siyasətlərində ənənə halına salmış bəzi dövlətlərin multikulturalizmini Azərbaycan multikulturalizm modeli ilə müqayisə etmək belə özlüyündə yanlışlıq olardı. Multikulturalizmin müxtəlif modelləri - amerikan, İsveç, Avstraliya, Kanada modeli kimi növləri olmasına baxmayaraq, Azərbaycanın dünyaya təqdim etdiyi model bir çox mütərəqqi dövlətlər tərəfindən rəğbətlə qarşılanır və nümunə kimi tətbiq edilməkdədir. Bu model tarixi köklərə bağlı olduğu üçün daha dayanıqlıdır. Elə bu günlərdə ABŞ-ın Yuta və Oreqon ştatlarının Senat və Nümayəndələr palataları tərəfindən Azərbaycanın tolerantlıq modelini təqdir edən geniş bəyannamənin qəbul edilməsi söylənilənlərə bariz nümunədir.

Bir sözlə, cənab Prezident İlham Əliyevin təbirincə desək, bu gün multikulturalizmin alternativi yoxdur və mənəvi dəyərlər baxımından ölkəmizin bu sahədə liderə çevrilməsi və dünya xalqları üçün əvəzsiz nümunə kimi qəbul olunması qürurvericidir.

**Bahar MURADOVA,**
***Milli Məclis Sədrinin müavini, YAP İdarə Heyətinin üzvü***